# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 84

**Bakı şəhəri** „28” noyabr 2016 il

**“Qusar rayon Mərkəzi Xəstəxanasının yeni strukturunun təsdiq edilməsi barədə”**

Qusar rayon Mərkəzi Xəstəxanasının strukturunun təkmilləşdirilməsi və çarpayıların işinin səmərəliliyinin artırılması, eləcə də xroniki böyrək çatışmazlığı ilə əlaqədar hemodializ müalicəsi alan xəstələrin ehtiyaclarının ödənilməsi və hemodializ şöbələri şəbəkəsinin genişləndirilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM :**

1. Mövcud ştat sayı və çarpayı fondu saxlanılmaqla Qusar rayon Mərkəzi Xəstəxanasının yeni strukturu təsdiq edilsin (əlavə olunur).

2. Qusar rayon Mərkəzi Xəstəxanasının baş həkimi M.Zeynalova tapşırılsın:

2.1. yeni struktura uyğun olaraq xəstəxananın ştat cədvəli hazırlanaraq müəyyən edilmiş qaydada Səhiyyə Nazirliyinə təqdim edilsin;

2.2. bu əmrdən irəli gələn maliyyə, kadr və digər məsələlər həll edilsin.

3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 05 avqust 2009-cu Il tarixli 96 nömrəli əmri ilə təsdiq edilmiş “Qusar rayonunun tibb müəssisələri şəbəkəsi və çarpayıların profili"nin 1-ci, 2-ci və 3-cü hissələri qüvvədən düşmüş hesab edilsin.

4. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova həvalə edilsin

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 28. 11. 2016 tarixli
84 nömrəli əmri ilə təsdiq edilmişdir

## Qusar rayon Mərkəzi Xəstəxanasının strukturu

### 1. Qusar Rayon Mərkəzi Xəstəxanası:

| Çarpayıların profili | Çarpayı sayı |
|---|---|
| Cərrahiyyə | 35 |
| Terapiya | 30 |
| Pediatriya | 15 |
| Doğum | 35 |
| Ginekologiya | 10 |
| Yoluxucu xəstəliklər | 10 |
| Vərəm | 15 |
| Anesteziologiya-reanimasiya | 10 |
| Onkologiya | 10 |
| Hemodializ | 10 |
| **Cəmi:** | **180** |

### 2. Samur qəsəbə sahə xəstəxanası:

| Çarpayıların profili | Çarpayıların sayı |
|---|---|
| Terapiya | 5 |
| Pediatriya | 5 |
| **Cəmi:** | **10** |

### 3. Həzrə kənd sahə xəstəxanası:

| Çarpayıların profili | Çarpayıların sayı |
|---|---|
| Terapiya | 5 |
| Pediatriya | 5 |
| **Cəmi:** | **10** |

**Cəmi rayon üzrə 200 çarpayı**